# MİS YARIMQRUPUNUN İSTEHSAL SAHƏLƏRİNDƏ MÜASİR TƏLİM METODU VASİTƏSİLƏ TƏDRİSİ

**P.Ş. Həsənova**
*Bakı Dövlət Sosial-İqtisadi Kolleci, kimya müəllimi*

Müasir istehsalat texnologiyasında əlvan metalların rolu əvəzsizdir. Müasir istehsalat texnologiyasında əlvan metalların rolu əvəzsizdir. Yeni kimya texnologiyasının inkişafı ilə bağlı olaraq əlvan metallar və onların ərintilərinə olan tələbat daha da artır. Bu məqsədlə əlvan metalların, xüsusilə misin orta məktəb və kolleclərdə yeni tədris metodu vasitəsilə tədrisi çox aktualdır.

**Dərsin gedişi:** Əvvəlcə I B qrup elementlərinin ümumi xarakteristikasını, misin təbii birləşmələri, alınması və fiziki-kimyəvi xassələrinin dərindən mənimsənilməsi. Cu yarımqrupu elementlərinin elektron quruluşu, element atomlarınıpn həyəcanlandıqda elektron keçidlərinin və metalların elektrokimyəvi gərginlik sırasının sxematik izahı. Mis yarımqrupu elementlərinin tətbiq imkanlarının geniş izahı.

Metallar əsasən bir-birindən




**Qrup üzrə iş:**

Şagirdləri əsasən 4 qrupa ayrılır. Hər qrupa tapşırıq və laboratoriya işi verilir

Qrupa verilən tapşırıqlar:

**Kimyəvi elementlər – metallar Cu, Ag, Au.**

1. Mis (Cu) yarımqrupu elementlərinin Dövri sistemdə mövqeyi, elektron quruluşu.

2. Elektron keçidləri nəticəsində qrup nömrəsindən yüksək oksidləşmə dərəcəsi göstərməsi.

3. Mis (Cu) sənayedə və laboratoriyada alınması. Fiziki və kimyəvi xassələri.
4. Kimya texnologiyasında mis yarımqrupu elementlərinin tətbiqi.

**Metal rabitəsi**

1. Metal atomları bi-biri ilə necə rabitə yaradır?
2. Metal rabitəsi
3. Metal rabitəsi ion və kovalent rabitəyə necə uyğundur?
4. Metallik rabitənin möhkəmliyi necədir?

**Mis bəsit maddə kimi**

1. Misin fiziki və kimyəvi xassəsi.
2. Misin metallıq xassələrinin sistematikası.
3. Misin tətbiq imkanları

**Metalların aktivlik sırası**

1. Mis hansı xassələr göstərir? Oksidləşdirici və reduksiyaedici.
2. Misin metalların aktivlik sırasında mövqeyi və bundan çıxan nəticələr.
3. Hansı maddələr mis ilə reaksiyaya daxil olur?

**Qrupun çıxışı.**

Tapşırıqların danışılması üçün 4-5 dəqiqə vaxt ayrılır. Çıxışlar əsasən sxem, cədvəllər və laboratoriya işlərinin yerinə yetirilməsi ilə nümayiş etdirilməlidir. Sonda şagirdlərə yekun məlumat verilir.

Dövri sistemin I B qrupuna mis, gümüş və qızıl d-elementləri daxildir. Bu elementlərin atomlarının sonuncu elektron təbəqəsində qələvi metallarda olduğu kimi bir elektron, axırdan ikinci elektron təbəqəsində isə, onlardan fərqli olaraq, 18 elektron yerləşir. $(n\text{-}1)\ s^2\ p^6\ d^{10}\ n\ s^1$. Mis yarımqrupu elementləri atomun həyəcanlanmış halındakı bir qisim elektronlar daha yüksək energetik səviyyəyə keçir və ona görə də müxtəlif oksidləşmə dərəcəsi göstərir.

$2Cu_2O + Cu_2S \rightarrow 6Cu + SO_2$

$CuSO_4 + Fe \rightarrow Cu + FeSO_4$

Mis kimyəvi cəhətcə fəal deyil, ona görə də havada səthində yaşıl rəngli təbəqə əsasi duz əmələ gəlir:

$2Cu + O_2 \rightarrow H_2O + CO_2 \rightarrow (CuOH)_2CO_3$

Mis oksigenlə 3 cür oksid əmələ gətirir. $Cu_2O$, $CuO$, $Cu_2O_3$ 400-500$^0$C qızdırdıqda qara rəngli CuO alınır. 1100$^0$C-də mis(I)oksidə və oksigenə parçalanır. Yüksək temperaturda misi qızdırdıqda qırmızı rəngli $Cu_2O$ əmələ gəlir.

$2Cu + O_2 \rightarrow 2CuO$

$4CuO \rightarrow 2Cu_2O + O_2$

Mis (II)oksid suda həll olmur, ona uyğun gələn hidrooksid dolayı yolla-suda həll olan duzuna qələvi məhlulla təsir etməklə alınır. Mis (II)hidrooksidi

qızdırdıqda parçalanır, ammonyakın suda məhlulunda həll olaraq kompleks birləşmə əmələ gətirir.

$Cu(OH)_2 + 4NH_4OH \rightarrow [Cu(NH_3)_4](OH)_2 + 4H_2O$

Mis (II)oksid və mis (II) hidrooksid atmosfer birləşdirir. Qələvilərlə közərtdikdə kupratlar, mis 2-hidrooksidi qələvilərin qatı məhlulu ilə qızdırdıqda hidrokso-kupratlar əmələ gəlir.

$CuO + 2NaOH \rightarrow Na_2CuO_2 + H_2O$

$Cu(OH)_2 + 2NaOH \rightarrow Na_2[Cu(OH)_4]$

Gərginlik sırasında hidrogendən sonra gələn mis yarımqrupu elementləri turşulardan hidrogeni çıxarmır. Mis isti qatı sulfat turşusunda, oksigen iştirak etdikdəisə duru $H_2SO_4$ və HCl turşularında, nitrat turşusunda həll olur:

$3Cu + 8HNO_3 \rightarrow + 3Cu(NO_3)_2 + 2NO + 4H_2O$

$Cu + 2H_2SO_4 \rightarrow CuSO_4 + SO_2 + 2H_2O$

$2Cu + 4HCl + O_2 \rightarrow 2CuCl_2 + 2H_2O$

Keçirilən dərs materialının möhkəmləndirilməsi:

Eksperimental hissə:

Lazım olan avadanlıq və ləvazimatlar: Elektrolizer, CuO, C (kömür), Cu (məftil), $HNO_3$ (qatı və quru), $H_2SO_4$ (qatı və duru), $CuSO_4 \cdot 5H_2O$ (duru məhlulu), dəmir (mıx), qlükoza, NaOH 20%-li məhlul, sınaq şüşələri, çini kasa, qaz lampası.

Eksperimentin aparılması:




$CuSO_4 + H_2O \rightarrow CuSO_4$ (suda məhlulu)

Təcrübə 1. Elektrolizerə $CuSO_4$ məhlulu töküb, elektroliz prosesinin aparılması, təmiz misin elektrodun üzərinə yığılmasını müşahidə etməli (Bu üsulla misi elektrokimyəvi təmizləmək olur).

Təcrübə 2. CuO üzərinə C (kömür) əlavə edibqarışdırılır. Kütlənin qızarmasını müşahidə etməli. Reaksiya tənliyini yazmalı.

Təcrübə 3. $CuSO_4 \cdot 5H_2O$ duzundan 2 qr çini kasaya töküb közərdirik. Nə baş verir?

Təcrübə 4. Cu məftili kiçik hissələrə ayırıb, sınaq şüşələrinə tökməli və uyğun olaraq qatı və duru $HNO_3$, $H_2SO_4$. Əlavə etməli. Reaksiya tənliklərini yazmalı.

Təcrübə 5. 2 qr $CuSO_4 \cdot 5H_2SO_4$ isti suda həll etməli (10 ml) və üzərinə 1,3 qr qlükoza əlavə edərək qarışdırmalı, sonra məhlulu qızdırmalı və dərhal üzərinə 2,5 ml 20% NaOH əlavə etməli və məhlulu qarışdırmalı, 1 saat gözləməli. $N_0$ müşahidə olunur. Ayrılan çöküntünü məhluldan ayırmalı.

Qeyd: Tələbələrin elektrolizer cihazını evdə sadə qələm, U- şəkilli kolba, kompyuter batareyası, rezin tıxac, mis məftildən istifadə edərək hazırlamalı. Bu reaksiya vasitəsilə təmiz balı təyin etmək olar.

Ev tapşırığı: İnformasiya texnologiyaları vasitəsilə misin tətbiq sahələri haqqında məlumat toplamaq.

## İstifadə edilmiş ədəbiyyat:

1. Химия в школе. 2013
2. Ə.Əliyev Kimya praktikumu – 2013
3. M.K.Bağıyeva. Ümumi və qeyri-üzvi kimya praktikumu. Bakı-2012
4. R.İ.Şükürov, M.M.Rəhimov "Metallurgiya" - 1985

***П.Ш.Гасанова***

**АННОТАЦИЯ**

Цель заключается в изучении и преподавании промышленной технологии цветных металлов с использованием интерактивных методов.

**P.Sh. Hasanova**

**ANNOTATION**

The aim is to study and teaching of industrial technology-ferrous metals using interactive methods

**Açar sözlər:** metal, əlvan, qara, asan əriyən, çətin əriyən

**Ключевые слова:** металл, цветные, чёрные, легкоплавкие, тугоплавкие

**Key words:** metals, nonferrous, black, busible metals, refractory metals